# EU4IM
# Kontent (Məzmun) İstehsalına Dəstək
# Elan

**EU4 Independent Media (Müstəqil Media üçün Aİ) Azərbaycan auditoriyası üçün müstəqil media kontentinin istehsalına dəstək məqsədilə çağırış elan edir.**

Kontent istehsalına dəstək proqramının ümumi məqsədi Ukraynada müharibə zamanı kifayət qədər işıqlandırılmayan, lakin onun təsiri ilə bağlı olan və Azərbaycan cəmiyyəti üçün mühüm əhəmiyyət kəsb edən mövzular üzrə yüksək keyfiyyətli, etibarlı və məzmun müxtəlifliyi ilə seçilən kontent istehsalını asanlaşdırmaqdır. Layihə Avropa İttifaqı tərəfindən dəstəklənir.

**Proqramın məqsədləri:**

1. Müstəqil media orqanlarına, jurnalistlərə və prodüser qruplarına kontent istehsalı ilə bağlı dəstək vermək.
2. Multimedia hekayələri hazırlamaq (storytelling) və mentorluq seminarları vasitəsilə media orqanlarının bacarıqlarının artırılmasına dəstək vermək.
3. Müxtəlif platformalar vasitəsilə Azərbaycan cəmiyyətinin ictimai maraq doğuran yüksək keyfiyyətli kontent və materiallarla təmin edilməsinə töhfə vermək.

**Uyğun namizədlər:**

1. Müstəqil media qurumları;
2. Azərbaycan cəmiyyəti və auditoriyası üçün xidmət göstərmək məqsədilə qeydiyyatdan keçmiş xəbər təşkilatları;
3. Media və jurnalistika ilə bağlı fəaliyyət göstərən qeyri-hökumət təşkilatları;
4. Müstəqil kontent istehsalı ilə məşğul olan təşkilatlar;
5. Yuxarıda qeyd edilənlərdən hər hansı birinin adından fəaliyyət göstərən jurnalistlər/kontent istehsalı qrupları.

Uyğunluq meyarlarının tam siyahısını buradan oxuyun**.**

Siyahıya alınmış namizədlər kontent istehsalı üçün 5000 avroya qədər maliyyə dəstəyi almaq məqsədi ilə müraciət edə bilərlər.

Müraciət üçün son tarix – **Mart 26, 2023.**

**Necə müraciət etməli?**

Doğru yönləndirilməniz üçün uyğunluq meyarlarını diqqətlə oxuyun.

Zəhmət olmazsa, onlayn forma vasitəsilə müraciət edin